# Tariximizin ağır və keşməkeşli sınaqlarla müşayiət olunan səhifəsi

*Ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycan 34 illik müstəqillik tarixi ərzində mürəkkəb, eyni zamanda şərəfli bir yol keçib. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini yenidən bərpa edən xalq ilk illərdə azadlığın sevincini tam şəkildə yaşaya bilməyib. Çünki müstəqilliyin ilk dövrləri son dərəcə ağır və keşməkeşli sınaqlarla müşayiət olunub.*



Ötən əsrin 80-ci illərin sonu 90-cı illərin əvvəlində keçmiş Dağlıq Qarabağ bölgəsində erməni separatizminin alovlanması, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazisinə hərbi təcavüzü, cəbhə bölgələrindən biri baş verdi. Ordu daxilində parçalanma, mərkəzi hakimiyyətə qarşı açıq itaətsizlik və nəzarətsiz hərbi birləşmələrin fəaliyyəti ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Həmin gün Gəncədə Azərbaycan Ordusunun keçmiş təhlükəsi getdikcə daha real xarakter alırdı. Həmin dövrdə ən ciddi problemlərdən biri də o idi ki, hakimiyyətdə təmsil olunan qüvvələr yaranmış böhranın qarşısını almaqda aciz idilər. Dövlət idarəçiliyindəki zəiflik, siyasi iradənin olmaması, pafuslu və populist çıxışlarla müşayiət olunan uğursuz fəaliyyətlər xalqın dərdinə çarə ola bilmirdi. Cəmiyyətdə ümidsizlik artır, sabitlik hər keçən gün daha çox pozulurdu.

1993-cü il iyunun 4-də Gəncədə Azərbaycan tarixinin ağır hadisələrindən biri baş verdi.

ki, bu güzəşt əslində dövlətçiliyə qarşı təhdidin daha da güclənməsinə səbəb oldu. Surət Hüseynovun təyin etdiyi şəxs hissənin komandanlığına gətirildi. Ancaq aradan bir ay keçməmiş Hüseynov prezidentə yazılı ultimatum göndərərək onun hakimiyyətini tanımadığını bildirdi. Bu, açıq-aşkar qiyam sayılırdı. Cavab olaraq Ə.Elçibəy 709 saylı hərbi hissənin rəhbərliyinin dəyişdirilməsi və birliyin Ağcabədi rayonuna köçürülməsi haqqında yeni sərəncam imzaladı. Lakin bu qərar da icra olunmadı. Əksinə, hüquq-mühafizə orqanlarının Gəncəyə ezam olunmuş yüksək rütbəli nümayəndələri qiyamçılar tərəfindən girov götürüldü. Prezident Qvardiyasının komandiri və onunla birlikdə olan 18 əsgərin avtobusda atəşə tutulması hadisənin ən dəhşətli anları oldu. Surət Hüseynov tabeçiliyindəki qoşun hissənin Bakıya doğru istiqamət götürməsi əmrini verdi. Gəncədə, o cümlədən, Bakıya qədər bəzi rayonlarda silahlı qarşıdurmalar yaşandı.

Qarşıdurma, ölkənin vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə olduğunu açıq şəkildə göstərirdi. Dövlət aparatında hökm sürən xaos, siyasi idarəetmədəki təcrübəsizlik və hakimiyyətdəki qrupların qətiyyətsizliyi isə ölkəni daha dərin böhrana sürükləyən başlıca amillərdən biri idi. Bu gərginliklər Azərbaycanda dövlətçiliyin gələcəyi üçün ciddi təhdid yaradırdı və vəziyyətin getdikcə nəzarətdən çıxmasına zəmin hazırlayırdı.

O illərin siyasi çəkişmələrinə şahidlik edənlər Azərbaycan Televiziyasına verdikləri müsahibələrdə hadisələri belə şərh edirdilər: "Həmin vaxt Azərbaycan dilemma qarşısında qalmışdı. Həm xaricdən, ginliyin, anarxiyanın və parçalanma təhlükəsinin hökm sürdüyü həmin çətin günlərdə Azərbaycan xalqı, eləcə də o dövrdəki siyasi rəhbərlik Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət edərək, ölkəni düşdüyü fəlakətdən xilas edə biləcək yeganə siyasi xadim kimi ona ümidlərini bağladılar. Heydər Əliyev xalqın və dövlətin çağırışına biganə qalmadı. Ulu öndər böyük məsuliyyət hissi və fədakarlıqla 1993-cü il iyunun 9-da Bakıya gəldi. Onun qısa müddətdə göstərdiyi siyasi iradə, qətiyyət və liderlik bacarığı sayəsində ölkədə vətəndaş müharibəsinin, dövlətçiliyin çökməsinin qarşısı qəti şəkildə alındı. Cəmiyyətdə gedən dərin parçalanma prosesi dayandırıldı, xaosa son qoyuldu və ölkə tədricən sabitliyə doğru yönəldi. 1993-cü il iyunun 15-də isə bu tarixi dönüş nöqtəsi rəsmiləşdi. Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tarixə "Milli Qurtuluş Günü" kimi düşdü. Əgər o vaxt Heydər Əliyevin hakimiyyətə qayıdışı baş verməsəydi, Azərbaycan bir əsrdə ikinci dəfə müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalacaqdı. Lakin Ulu Öndər bu təkrara izn vermədi. Onun müdrikliyi və uzaqgörənliyi nəticəsində Azərbaycan yenidən öz gələcəyinə sahib çıxdı. Bir çağırışla xalqın xilaskarına çevrilən Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisi və memarı kimi tarixi missiyasını yerinə yetirdi. Ölkəni parçalanmadan, vətəndaş müharibəsindən, xarici və daxili təhdidlərdən xilas edərək milli birliyi və dövlətçiliyi bərpa etdi. Məhz bundan sonra etibarən Azərbaycan sabitlik, inkişaf və tərəqqi yoluna qədəm qoydu.

**Musa BAĞIRLI,**
**"Respublika".**

Respublika .- 2025.- 4 iyun(№115).- S.5.